***İBTİDAİ SİNİFLƏRDƏ TƏHSİL VƏ TƏRBİYƏ***
***ОБРАЗОВАНИЕ И ВОСПИТАНИЕ В НАЧАЛЬНЫХ КЛАССАХ***
***EDUCATION AND UPBRINGING IN PRIMARY CLASSES***

*UOT 373.31*

# KİÇİKYAŞLI MƏKTƏBLİLƏRDƏ ƏXLAQİ KEYFİYYƏTLƏRİN FORMALAŞDIRILMASININ PRAKTİK MƏSƏLƏLƏRİ

**Vüsalə Mübariz qızı Səmədova**
*Bakı Qızlar Universitetinin magistrantı*
**ORCİD:** 0009-0009-4142-7151
**E-mail:** vmemmedova470@gmail.com

***Açar sözlər:*** *əxlaq, tərbiyə, kiçikyaşı məktəbli, şüur, sinif, məktəb, təlim.*
***Ключевые слова:*** *Мораль, воспитание, младший школьник, сознание, класс, школа, обучение.*
***Key words:*** *morality, education, junior high school student, consciousness, class, school, training*

Kiçikyaşlı məktəblilər dedikdə təqribi 5-10 yaşlı (məktəblərdə 5 yaşlılardan ibarət məktəbəhazırlıq qruplarına cəlb olunan) və ya 6-10 yaşlı (birbaşa birinci sinfə qədəm qoyan) şagirdlər nəzərdə tutulur. 1-4-cü sinif şagirdlərinin aid olduğu yaş dövrünün adətən uşaqlığın zirvəsi adlandırırlar. Belə ki, bu dövrdə uşaqlar hələ də sadəlövhlük, səthi düşünmək, asan aldadılmaq kimi bir sıra uşaqlıq xasiyyətlərini özlərində saxlayır, digər tərəfdən isə məntiqli yanaşmaları ilə həyatın gedişatını dərk etməyə başlayırlar. Yaş dövrləri sırasında ən sakit böhran 6-7 yaşlı məktəblilərdə baş verir.

Bu yaş dövründə uşaqlar birdən-birə özlərini yeni bir məkanda, yeni bir rolda görür, yeni vasitələrlə həyatlarında heç vaxt görmədiyi bir insanın-müəllimin tapşırıqlarını yerinə yetirmək məcburiyyətində qalırlar. Bu cür proses adaptasiya prosesidir və hər bir məktəblidə fərqli səviyyədə baş verir. Həmin dövrün dəyişikliklərini yaşayan kiçik yaşlı məktəblilərin valideynləri adətən övladlarının inadkar, ziyankar, əsəbi, kədərli və böyüklərini təqlid etdiklərini bildirirlər. Bu dövr sensitiv dövr olduğundan uşaqlar özlərinə qapanıq, cəmiyyətdən təcrid olunmuş vəziyyətdə qalırlar. Nə qədər pis olsalar belə, bunu öz valideynlərinə belə bildirmək isdəmirlər. Bu kimi hallarda müəllim və valideynlərin qarşılıqı əməkdaşlığı, yüksək davranış mədəniyyəti bu sensitiv dövrü aşmaqda onlara kömək edəcəkdir.

Görkəmli Azərbaycan alimi Nəsirəddin Tusi “Əxlaqi-Nasiri“ adlı əsərində göstərir ki, uşaq tərbiyəsi zamanı onların gizliliyə meylli olmasına çalışmaq, bunun üçün tərbiyə verənlərdə uşağa qarşı son dərəcədə həssaslıq, müşahidəedicilik qabiliyyətinin olmasını əsas hesab etmişdir. Tusi uşaqlarda olan bu gizliliyə meyllilik xüsusiyyətinin vərdiş xarakter almasını isə daha betər olduğunu yazmışdır: ”Bir şeyi gizlətmək, onun qəbahətli iş olduğunu başa düşməyi göstərir. O, bir qəbahətli iş gizlədildimi, başqa qəbahətli işləri gizlətməyə də cəsarət edilir”.

Nəsrəddin Tusi, həmçinin, ibtidai sinif şagirdlərində olmalı olan əsas davranışlardan “həya” hissini xüsusilə fərqləndirir. Onun fikrinə görə, uşağın təmiz idraki qüvvələrindən birincisi həyadır. Bu məqsədlə o belə qeyd edir: ”Uşaq həyalıdırsa, əksər halda başını aşağı salıb sırtıqlıq etmirsə, bu onun nəcibliyinə sübutdur; bu o deməkdir ki, onun nəfsi çirkin əməllərdən ikrah

edib, gözəl işlərə meyl edib. Bu əlamət həmin istedadın uşaqda olduğuna dəlalət edir. Belə isə, həmin uşağın tərbiyəsinə xüsusi fikir verilməli, heç bir şeyi əsirgəməməli, istedadın sönüb getməsinə yol verilməməlidir". [6, s 21-22]

Təlim prosesində kiçikyaşlı məktəblilərə müstəqillik verilməməsi, ənənəvi təlim metodlarından müasir dövrümüzdə hələ də istifadə edilməsi məktəblilərin inkişafına mənfi təsir göstərən amillərdən biridir. Uşaqlar müstəqil olmalı bu istiqamətdə tərbiyə olunmalıdır. Müasir fənn kurikulumu da məhz elə bu məqsədlə hazırlanmışdır. Kiçikyaşlı məktəblilərdə intellektual bacarıq və vərdişlərin formalaşması üçün müstəqillik əsas şərtlərdən biridir. Şagirdlərə bilikləri hazır şəkildə vermək düzgün deyil, müəllim daha çox çalışmalıdır ki, kiçikyaşlı məktəblilərə sadəcə istiqamət versin, yol göstərsin və s. əks halda onlara hazır cavabları vermək uşaqların fəaliyyətinə, müstəqil işləmək bacarığına ciddi zərər verir və bu onlarda tənbəlliyə, özünə inamsızlığa gətirib çıxarır. Təlim prosesində şagirdlərə heç olmasa düşünmək, fikirləşmək üçün imkan yaradılmalıdır.

Bəzən kiçikyaşlı məktəblilərə həddindən artıq nəzarət olunur. Bu da uşaq müstəqilliyini daraldır, onun iradəsini iflic edir. Əksinə, kiçik məktəblilərə belə davranış forması zərər verir, qeyri-fəallığa, tənbəlliyə, məsuliyyətsizliyə səbəb olur. Pedaqoqlarda bu cürə davranış tərzini qəbul etməmişlər: "Əgər uşağı həmişə" pedaqoji kəndirdə" tutub saxlasaq, tərbiyə üçün çox vaxt tələb olunur. Daim himayəçilik, valideynlik qayğısı onun iradəsini iflic edir. Elə tərbiyə yalnız zərər verir, o, qeyri-fəal və zəif iradəli adamlar formalaşdırır. Uşağa kömək nə qədər çox olarsa, uşaqla işləyərkən valideyin nə qədər fəal olarsa, nəticə o qədər pis olar. Uşaq körpəlikdən öz gücünə inanmalı, şəxsi məsuliyyət anlayışına yiyələnməli, kimsədən kömək gözləmədən öz sözünü deməyə çalışmalıdır". [2, s. 65]

Şagirdlərə milli mənlik, əxlaq anlayışlarının aşılanması prosesi yalnız sinifdə aparılan təlim prosesi ilə baş vermir. Onlara bu normaların aşılanması zamanı sinifdənxaric tədbirlər xüsusi rola malikdir. Kiçikyaşlı məktəblilərdə müsbət əxlaqi keyfiyyətlərin formalaşdırılması üçün sinifdənxaric tədbirlərin müxtəlif formaları vardır. Bu formalar şagirdən sinifdən-sinfə keçdikcə daha da mürəkkəbləşir və zənginləşir. Məktəblə həyat arasında əlaqə rolunu oynayan sinifdənxaric tədbirlər fərdi, qrup-kollektiv, kütləvi, klub, cəmiyyət formasında həyata keçirilir. Bu formalar əmək adamları ilə görüşlər, şəhidlər xiyabanına ziyarətlər, kitab müzakirələri (qiraət, konfrans) və s. şəklində təşkil olunur. Yuxarı sinif şagirdləri üçün təşkil edilən sinifdənxaric tədbirlərin formaları ilə kiçikyaşlı məktəblilərə aid formalar arasında müəyyən fərqlər olmasına baxmayaraq varislik prinsip Şagirdlərdə milli–mənlik şüurunu formalaşdırmaq, onlara müsbət əxlaqi keyfiyyətlər aşılamaq məqsədilə ümummilli liderimiz Heydər Əliyevin həyat və fəaliyyətinin nümunəsi xüsusi yerə malikdir. Bu tarixi şəxsiyyətin həyat və fəaliyyətinin öyrənilməsində söhbət və məruzələrin, tematik gecələrin təşkili, muzey və güşələrin yaradılmasının böyük əhəmiyyəti vardır. Məktəblilər öz doğma yurdlarının, şəhər və rayonlarının, küçələrinin tarixini öyrənərkən Heydər Əliyevin tarixi xidmətlərinə müraciət edir, onun Azərbaycan xalqının böyük oğlu kimi ictimai siyasi sahədə, dövlət və vətən qarşısında tarixi rolunu dərindən dərk edirlər. Kiçikyaşlı məktəblilərlə aparılan iş formalarından fərqli olaraq, yuxarı siniflərdə bu mövzuda daha geniş, dərin və ətraflı məzmuna malik sinifdənxaric iş formaları özünü büruzə verir.

Kiçikyaşlı məktəblilərdə sinifdənxaric tədbirlərə bədii ədəbiyyatın təbliği də daxildir. Məsə-

lən, Qarabağla bağlı hər hansı bir tədbirin keçirilməsi üçün kitabxanaçılar ilk növbədə kiçikyaşlı məktəblilər üçün kitab fondunun komplektləşdirilməsinə, müxtəlif mövzuların tərtib edilməsinə böyük önəm verməlidirlər. Bədii ədəbiyyatın təbliği daha çox yayılmış ədəbi-bədii gecələr vasitəsilə də həyata keçirilir. "Qalx ayağa, Azərbaycan" mövzusunda ədəbi bədii gecə təşkil etməklə müəllimlər Qarabağın qəhrəman oğul və qızları haqqında yazılmış bədii ədəbiyyat nümunələrini şagirdlərə çatdırmaq, onların bədii zövqlərinin formalaşmasına müsbət təsir göstərmək imkanını qazana bilərlər. Məktəblərin nəzdində fəaliyyət göstərən ədəbi dərnəklərin gücündən də istifadə etmək olar. Hər bir rayonun işğal olunduğu gün anım mərasimləri keçirmək, bu mərasimlərə Qarabağ döyüşçülərini, hadisələrin şahidlərini, bu mövzuda yazan yazarları, rayonun ziyalılarını dəvət etmək olar. Şəhid anaları, övladları, həyat yoldaşları ilə kiçikyaşlı məktəblilərin görüşünü mütəmadi keçirmək, bu ailələrlə onların ünsiyyətini, təmasını yaratmaq da vacib məsələdir. Bütün bunlar kiçikyaşlı məktəblilərə daha emosional təsir göstərir, onlarda faciəni törədənlərə nifrət hissini artırır.

**Problemin aktuallığı.** Məqalənin aktuallığı ondan ibarətdir ki, şagirdlərin təlim və tərbiyə proesində, eyni zamanda sinifdənxaric tədbirlər zamanı kiçikyaşlı məktəblilərdə müsbət əxlaqi keyfiyyətlərin formalaşdırılması xüsusi əhəmiyyət kəsb edir .

**Problemin elmi yeniliyi.** Məqalədə kiçikyaşlı məktəblilərdə əxlaqi keyfiyyətlərin formalaşdırılmasının praktik məsələləri, təlim prosesində kiçikyaşlı məktəblilərdə əxlaqi keyfiyyətlərin formalaşdırılması imkanları, sinifdənxaric tədbirlər zamanı kiçikyaşlı məktəblilərə əxlaqi keyfiyyətlərin formalaşdırılması imkan və yolları, və təlim prosesində kiçikyaşlı məktəblilərin qiymətləndirilməsi haqqında ətraflı məlumat verilmişdir.

**Problemin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən müəllimlər, şagirdlər, tələbə, elmi işçi və magistrantlar istifadə edə bilərlər.

## Ədəbiyyat

1. A.Həsənov, Ə.Ağayev. Pedaqogika: Dərslik.Bakı: Nasir, 2007, 496 s.
2. Kərimov Y.Ş. Uşaq məktəbə gedir. Bakı: Qanun, 2002, 365 s.
3. Şagird nailiyyətlərinin qiymətləndirilməsinin pedaqoji əsasları (metodik tövsiyə). Bakı: "CN POLİGRAFİYA", 2023, 100 s.
4. Kiçikyaşlı məktəblilər və əxlaq tərbiyəsi / Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin anadan olmasının 90 illiyinə həsr edilmiş Gənc tədqiqatçıların I Beynəlxalq Elmi Konfransı, Qafqaz Universiteti, 2013, 26-27 aprel, s. 633-634.
5. Həsənova S.H. Kiçikyaşlı məktəblilərdə davranış mədəniyyətinin tərbiyə olunması: Ped.elm.nam.dis.avtoref. Bakı, Elm, 1997, 287 s.
6.http://anl.az/el/t/tsn-en.pdf

**В.М. Самадова**

**Практические вопросы формирования нравственных качеств у младших школьников**

**Резюме**

Особую роль в обеспечении успешности нравственного воспитания с использованием художественных примеров играют внеклассные и внеурочные мероприятия. Например, игры, беседы, красочные и разнообразные встречи больше привлекают младших школьников, информируют их, а также формируют их духовный мир и духовные личности.

**V.M. Samadova**

**Practıcal issues of formıng moral qualities in primary school children**

**Summary**

Extracurricular and extracurricular activities play a special role in ensuring the success of moral education using artistic examples. For example, games, conversations, colorful and diverse meetings attract young schoolchildren more, inform them, and also shape their spiritual worlds and spiritual personalities.

**Redaksiyaya daxil olub:** 14.03.2025